Heydər Əliyev – 100

# Heydər Əliyev idmana da xüsusi qayğı göstərirdi

**Ulu öndər Heydər Əliyevin vəfatının 19-cu ili dahi şəxsiyyətin anadan olmasının 99-cu ilinə təsadüf edir. Biz də Azərbaycana rəhbərlik etdiyi uzun illər ərzində idmançılarımızın ən yaxın dostu olmuş ümummilli liderin idmana göstərdiyi gündəlik diqqət və böyük qayğı haqqında qeydlərimizə on doqquz il əvvəl hələ yeniyetmə şahmatçı olan, bu gün isə məşhur qrossmeyster Eltac Səfərlinin müdrik rəhbərimizin vəfatından bir neçə gün sonra qəzetimizə verdiyi müsahibə ilə başlamaq istəyirik. Onda Eltac demişdi:**



– Keçən il dekabrın 8-də Teleteatrda YUNİSEF-in təşkil etdiyi Uşaqların Teleradio günü keçirilirdi. Bu görüşdə aparıcılar məni uşaqlara təqdim edəndə əziz Heydər babamızın üzündə xüsusi sevinc gördüm. O, məni yanına çağırdı. Möhkəm qucaqladı, öpdü. Bir yerdə şəkil çəkdirdik. Ona söz verdim ki, sizin 80 illik yubileyinizə dünya və Avropa çempionu kimi gələcəyəm. Vədimi yerinə yetirdim.

İndi mən dərin həyəcan içindəyəm. Neçə gündür ki, Heydər babamızı itirmişik. O, Azərbaycan uşaqlarının ən sevimli babası idi. Mən heç cür onun ölümü ilə, yoxluğu ilə barışa bilmirəm. Bizim əbədi Prezidentimiz uşaqları çox sevirdi. Həmişə deyirdi ki, uşaqlar müstəqil Azərbaycanın gələcəyidir. Məsləhət görürdü ki, dərslərimizi əla qiymətlə oxuyaq, xüsusilə dəqiq elmlərə daha çox fikir verək. Çünki əsrimiz texnika əsridir. Mən də Heydər babamın məsləhətinə həmişə əməl edəcəyimə söz verirəm. İnanıram ki, Prezidentimiz İlham Əliyev Heydər babanın yolunu layiqincə davam etdirəcək, onun yaratdığı müstəqil Azərbaycanı daha xoşbəxt günlərə çıxaracaq. Arzu edirəm ki, Heydər babanın axıra çatdıra bilmədiyi işləri İlham əmi həyata keçirsin. Torpaqlarımız işğaldan azad olunsun. İlham əmi Şuşada Olimpiya Kompleksi tikdirsin, mən də orada dünya birinciliyində iştirak edim...

Eltac Səfərli həmin hüznlü günlərdə bu dedikləri ilə ölkənin bütün idman ictimaiyyətinin fikrini ifadə etmişdi. Məşhur çempionlar, görkəmli mütəxəssislər, sıravi bədən tərbiyəçiləri daim onların sağlamlığı və gümrahlığı, yüksək idman nailiyyətləri qayğısına qalan, bu istiqamətdə hərtərəfli köməyini əsirgəməyən ulu öndərə həmişə minnətdar olmuşlar, bu gün də onun gördüyü işləri dərin razılıq hissi ilə xatırlayarkən qətiyyətlə, qədirbilənliklə "Heydər Əliyev idmanımızın dayağı idi" deyirlər.

Bu sətirlərin müəllifi 1996-cı ildə Zuğulbadakı "Gənclik" düşərgəsində Azərbaycan idmançılarının Atlantaya (ABŞ), XXVI Olimpiya Oyunlarına yolasalınma mərasimində iştirak etmiş və respublika rəhbərinin olimpiyaçılarımıza necə xeyir-dua verdiyinin şahidi olmuşdu. Onda Prezident Heydər Əliyev idmançılarımıza uğurlar arzulayarkən olimpiyaçı olmağın, idman meydanında Vətəni təmsil etməyin necə şərəfli və məsuliyyətli iş olması haqqında ətraflı danışdı, onlara öz tövsiyələrini verdi.

Həmvətənlərimiz okeanın o tayından qayıtdıqdan dərhal sonra isə Heydər Əliyev nümayəndə heyətimizi Prezident Sarayında qəbul etdi, mötəbər yarışda uğurlu çıxışa görə minnətdarlığını bildirdi, sərbəst güləş ustası Namiq Abdullayevin qazandığı gümüş medalı qızıl mükafata bərabər tutduğunu söylədi.

Həmin il Azərbaycan idmanı nümayəndələri ilk dəfə Olimpiya oyunlarında müstəqil ölkənin müstəqil komandası kimi çıxış etmiş və elə ilk cəhdimiz uğurlu olmuşdu. Təmsilçimiz olimpiya fəxri kürsüsünün gümüş pilləsinə yüksəlmişdi. Olimpiya medalının nə demək olduğunu isə heç kimə izah etməyə ehtiyac yoxdur. Olimpiya medalları onları qazananların mükafatlar kolleksiyasında ən qiymətli medallardır.

Ümummilli liderin Azərbaycan idmanına böyük qayğı və diqqətinə ən parlaq nümunə kimi 1974-cü il iyunun 21-də keçirilmiş respublika partiya fəallları yığıncağını xüsusi qeyd etmək olar. Bu, Azərbaycan tarixində idmanla bağlı ən mötəbər tədbir idi və aradan yarım əsrə qədər vaxt keçməsinə baxmayaraq hələ də unudulmayıb.

Onda Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi idi və məhz respublika rəhbərinin təşəbbüsü ilə partiya fəalları yığıncağında ilk dəfə olaraq bədən tərbiyəsi və idman məsələlərini hərtərəfli müzakirə etmək, gələcək inkişaf yollarını müəyyənləşdirmək qərara alınmışdı.

Respublikada böyük əks-səda doğuran həmin yığıncaqda idman tariximizdə ən görkəmli mütəxəssislərdən biri, yüngül atletika üzrə Əməkdar məşqçi Əfqan Səfərov çıxışında tədbirin əhəmiyyətini böyük razılıq hissi ilə qeyd etmişdi: – Azərbaycan idmanının ağsaqqallarından biri kimi deyə bilərəm ki, respublika partiya fəallarının indiki yığıncağı bədən tərbiyəsi və idmanın inkişafına Azərbaycan KP MK-nın göstərdiyi qayğının yeni parlaq təzahürüdür. Bu yığıncaq Azərbaycanda idman hərəkatına çoxdan bəri ehtiyac duyulan bir təkan olacaqdır.

Belə də oldu. Hadisələrin sonrakı gedişinin göstərdiyi kimi, partiya fəalları yığıncağı Azərbaycan idmanında tarixi bir tədbirə çevrilib, gələcək uğurlarımız üçün gözəl imkanlar açdı. Məhz həmin yığıncaqdan sonra idman təşkilatlarımız öz işlərini qarşıya qoyulan vəzifələrin icrası istiqamətində qurub, fəaliyyətlərini canlandırdılar. MK rəhbərinin qeyd etdiyi bütün sahələrdə işin daha yaxşı aparılması, yüksək keyfiyyətlə yerinə yetirilməsi üçün qüvvə və bacarıqlarını səfərbərliyə aldılar.

Görülən tədbirlər, qəbul edilən qərarlar tezliklə öz bəhrəsini verib, idmanımızın ayaq üstə daha möhkəm dayanaraq inamlı addımlarla irəliləməsinə şərait yaratdı.

Bu gün isə müstəqil Azərbaycan Respublikası qüdrətli bir idman dövlətinə çevrilmişdir. Bununla da Heydər Əliyevin iyirmi il əvvəl, 2002-ci ilin payız günlərindən birində Şəki Olimpiya İdman Kompleksinin açılış mərasimindəki nitqində ifadə etdiyi arzu tam həyata keçmişdir: "... İdman, eyni zamanda, həqiqətən, hər xalqın, millətin başqa xalqlar içərisində şöhrətini yüksəldən sahələrdən biridir. İstəyirik ki, bizi hər yerdə tanısınlar, hər yerdə bilsinlər ki, Azərbaycan nəyə qadirdir və nədən ibarətdir".

Bu gün ümummilli liderə dərin ehtiramla deyə bilərik ki, indi dünya Azərbaycanı bədən tərbiyəsi və idmanın daimi qayğı ilə əhatə olunduğu, olimpiya idman kompleksləri tikintisinin geniş vüsət aldığı, idman və olimpiya hərəkatımızın çoxlarına nümunə göstərildiyi dövlət, tarixdə ilk dəfə 2015-ci ildə Bakının qəbul etdiyi Avropa Oyunlarının vətəni, adları hər yerdə hörmətlə çəkilən olimpiya və dünya çempionlarının ölkəsi kimi tanıyır.

Bu gün müasir və qüdrətli Azərbaycan tarixində idmançılarımızın ən yaxın dostu kimi yaşayan Heydər Əliyevin uzaqgörən siyasəti idmanımızı zirvələrə ucaltmış və buna görə bütün idmançılar – şahmatçılar, güləşçilər, boksçular, cüdo və taekvondo ustaları, voleybolçular, futbolçular, gimnastlar və idmanın digər növlərinin nümayəndələri ulu öndərə minnətdardırlar. Hamı yarım əsr əvvəl yaradılmış möhkəm təməl üzərində qələbə əzmi ilə irəliləyir.

İdman ictimaiyyətimizin nümayəndələri qarşısında çıxışlarından birində idmana xüsusi qayğını öz üzərinə götürdüyünü bəyan edən Heydər Əliyev bu vədini ömrünün sonunadək ən yüksək səviyyədə yerinə yetirdi.

E.Səfərlinin on doqquz il əvvəlki arzusu da artıq gerçəkləşib. Qrossmeyster qürur duya bilər. Ulu öndər Heydər Əliyevin başladığı işi cənab Prezident İlham Əliyev layiqincə, möhtəşəm zəfərlə davam etdirir. Torpaqlarımız işğaldan azaddır. Bu gözəl yerlərdə artıq beynəlxalq yarışlar, o cümlədən Şuşada bir çox ölkənin məşhur kişi və qadın qrossmeysterlərinin iştirakı ilə mötəbər turnirlər keçirilib. Dövlət başçısı, MOK prezidenti İlham Əliyevin Şuşada Olimpiya İdman Kompleksi tikdirəcəyi gün də uzaqda deyil.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***